**"Biriya", könlüm olub aşiqi-rüxsari vətən,**
**Başıma düşdü yenə nəşeyi-gülzari vətən.**
**Hər ürək bir qəmə dünyada giriftar oldu,**
**Varmı bir qəlbi-mübarək, ola qəmxari-vətən?!**

# 1945-ci il Cənubi Azərbaycan hökumətinin şair naziri Məhəmməd Biriya...



Bu misralar Cənubi Azərbaycanın şair oğlu, ədəbiyyat, mədəniyyət, dövlətçilik tarixində əhəmiyyətli yeri olan

Məhəmməd Bağırzadə Biriyanındır…1914-cü ildə Təbrizdə doğulan Məhəmməd Hacı Qulam oğlu Biriya həm bir şair, həm işıqlı ziyalı, həm fədai, həm də Azərbaycan Demokrat Firqəsinin maarif naziri, dövlət xadimi kimi tarixdə qalıb. Həyatı keşməkeşli olan M.Biriya Cənubi Azərbaycanın azadlığı, ana dili, ana dilində təhsil, milli mədəniyyət uğrunda alovlu mübariz olub.

Təbriz şəhərində dünyaya gələn Biriyanın atası sənətkar olub. 1920-ci ildə Quzey Azərbaycana muhacirət edib. İlk təhsilini Bakıda alıb. 1929-cu ildə anası vəfat etdikdən sonra yenidən Təbrizə qayıdıb. Alovlu şeirləri ilə məşhur olan şair milləti Pəhləvi zülmünə qarşı mubarizəyə dəvət edib və özü də xalqın önündə gedən aydınlardan olub. Biriya Bakıda Texnikum bitirib. Sonrakı fəaliyyəti Təbrizlə bağlı olub. Tədqiqatçıların yazdığına görə, 1941-ci ildə Sovet hökumətinin dəvəti ilə İranın bir qrup ziyalısı arasında Biriya da Bakıya gəlir. On beş gün Bakıda qaldıqdan sonra geri dönən şair təzyiqlərlə üzləşir.

Bundan sonra gizlincə Bakıya gələn Biriya bir müddət Azərbaycan Yazıçılar İttifaqında və Azərbaycan Radio Komitəsində işləyir. 1943-cü ilin yanvarında yenidən Təbrizə göndərilir, bir müddət sonra Cənubi Azərbaycan Həmkarlar İttifaqının sədri vəzifəsinə seçilir, hətta 1945-ci ildə Parisdə keçirilmiş Ümumdünya Həmkarlar İttifaqı Konqresində nümayəndə kimi iştirak edir. Həmin ərəfədə Bakıda, 1944-cü ildə "Ürək sözü" adlı kitabı 5 min tirajla çap edilir.

Məlumatlara görə, 1945-ci ildə Azərbaycan Demokrat Firqəsi hökumət qurandan sonra maarif naziri seçilən Məhəmməd Biriya məktəblərdə Azərbaycan dilinin tədrisinin proqramını yaradıb. 1941-1946-cı illərdə Respublikamızın ziyalıları tərəfindən Təbrizdə nəşr olunmuş "Vətən yolunda" qəzetində bir çox şerləri dərc olunub.

1947-ci ildə Azərbaycan Demokrat Firqəsi dağılandan sonra Şimali Azərbaycana gəlmişdir. Sovet dövründə Sibirə sürgün olunub. Azərbaycan maarifinin inkişafında böyük rol oynayıb.

1947-ci il dekabrın 28-də Biriyanı gizli həbs edilib. 7 aydan çox davam edən istintaqdan sonra 10 il həbs cəzası kəsərək indiki Qazaxıstan Respublikasının Karaqanda şəhərindəki 415 saylı islah əmək düşərgəsinə göndərilib. Şair həbsxanada da "dinc durmadığına" görə onu tez-tez məhbuslardan ayırmağa, ayrı-ayrı həbs düşərgələrinə göndərməyə məcbur olublar. Hətta 20 noyabr 1950-ci ildə həbsxana məhkəməsi yenidən 10 il, Luqovsk həbs düşərgəsində olduğu zaman isə, yəni 23 avqust 1951-ci ildə ciddi nəzarətdə saxlamaqla bir il həbs cəzasına məhkum edilib.

30 avqust 1956-cı ildə Məhəmməd Bağırzadə Biriyanın qondarma cinayət işinə yenidən baxılıb və "əməlində cinayət tərkibi olmadığına görə işə xitam verilib".

1985-ci il fevralın 19-da döyüşkən şair ziddiyətli ömrünü Təbrizdəki kimsəsizlər evində başa vurub.

Şair Biriya 18 yanvar 1957-ci ildə Azərbaycan hökumətinin rəhbərlərinə, Sovetlər İttifaqının baş naziri Malenkova 16 maddəlik bir məktub göndərir. Məlumata görə, bu yazının original surəti Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanılmaqdadır. Həmin nüsxənin üzündən latın əlifbasına Piruz Dilənçi koçürübdür.

Tanınmış tədqiqatçı Əli Şamil M.Biriyaya həsr etdiyi "Zamanın keçməkeşlərinə baş əymədiyindən ziddiyətli bir ömür sürsə də, üsyankarlığı və mübarizliyi ilə yaddaşlara hopmuş şair Məhəmməd Bağırzadə Biriyanın ömür yolu və yaradıcılığı" məqaləsində yazır: "…Məhəmməd Bağırzadə Nuhin özkeçmişində yazır ki, anam xəstələndi. Həkimlər Xorasanın havasının anamın xəstəliyini şiddətləndirəcəyini söylədi. Buna görə 1923-cü ilin sonlarında Bakıya qayıtdıq.

1929-cu ildə Bakıdakı 37 saylı yeddiillik məktəbi bitirib Neft Maşınqayırma Texnikumuna daxil olan Məhəmməd Bağırzadənin anası və əmisi ölür. Atası dörd övladı ilə birlikdə 1933-cü ilin yanvar ayının 11-də Təbrizə dönüb.

1934-1936-cı illərdə Məhəmməd Bağırzadə Təbriz Bələdiyyə İdarəsində qeydiyyatçı işləyib. 1938-ci ildə İran ordusunun Təbrizdəki 27-ci alayın 3-cü diviziyasında əsgəri xidmətə başlayıb. Gənc şair zabitlərin qaba rəftarına həsr etdiyi şeirində yazıb:

Şallağa bir bax, mən
ölüm, şallağa,
Hazır olublar bizi
öldürməyə.

Şeirin sürətlə yayıldığını görən zabitlər Məhəmməd Bağırzadənin əsgərlərdən ayıraraq hərbi hissədəki keçid məntəqəsinə göndəriblər.

Əsgərlik müddətini başa vurduqdan sonra Su İdarəsində katib və Dəmiryol İdarəsində hesablayıcı işləyib. Məktəbdə oxuduğu ilərdə divar qəzetinə şeirlər yazan Məhəmməd "Şahin" qəzetində korrektor işləyərkən yazdığı şeirlərini farsca "səmimi söz" anlamına gələn Biriya imzası ilə çap etdirib.

Satirik şeirlərilə oxucu diqqətini özünə cəlb edən Məhəmməd Bağırzadə İkinci Dünya Savaşı başlayandan sonra ictimai-siyasi fəallığını artırıb. Güney sərhədlərindən "faşizm təhlükəsi" gözləndiyinin bəhanə gətirən Sovetlər Birliyi 1941-ci ilin avqustunda İrana qoşun yeridərək Tehrandan Araz çayınadək olan ərazini nəzarət altına alıb. Böyük Birtanıya da vəziyyətdən yararlanaraq İranın neftlə zəngin güney bölgələrinə əsgəri birliklər göndrib. Xalqa min bir zülm verən, hər cür islahatlara və yeniliyə əngəl olan şah ölkəni tərk etməli olub. Sovet ordusu İranın quzeyində yerləşdikdən sonra orada möhkəmlənmək üçün güclü ideya-siyasi iş aparıb. Məqsədi orada sosializ ideyalarını yaymaq, bölgəyə sosialist inqilabı ixrac etmək, İranı Sovetlər Birliyinin təsiri altında salmaq olub. Bu məqsədlə də Sovet Azərbaycanından bir qrup ziyalını Güney Azərbaycandakı hərbi hissələrə əsgər və zabiti kimi göndərilib.

Şah rejimi ölkədə fars dilini dövlət dili elan etmişdi. İranda yaşayan Azərbaycan türklərinin, türkmənlərin, ərəblərin, kürdlərin, bəluclaların, giləklərin, lorların və b. xalqların dillərində nəinki məktəb, qəzet və jurnal açmaq, kitab nəşr etmək, hətta ictimai yerlərdə danışmaq belə qadağan idi. Bunun əksinə olaraq Sovet Azərbaycanından göndərilmiş mülkü mütəxəssislərin, ədəbiyyat və mədəniyyət işçilərinin Azərbaycan türkçəsində qəzet-jurnal açmaları, radio verlişlər hazırlamaları, kulublarda, kino-teatrlarda xalqın anlayacağı dildə kinolar göstərmələri adamların diqqətini çəkmişdi. Sovet Azərbaycanının yardımı ilə şəhərlərdə yollara asfalt döşənir, su kəməri çəkilir, çirkab sularının axıdılması üçün qurğular yaradılır, unversitet, flarmoniya, teatr, kiçik sənaye obyektləri açılırdı. Təbrizdə Azərbaycan türkcəsində "Vətən yolunda" adlı qəzet nəşr edibləməsi, Dostluq Cəmiyyətinin salonundakı toplantıların ana dilində aparılması, məktəblilərə ana dilində dərs keçilməsi Güney Azərbaycanında yaşayan sadə xalqın Sovetlərə məhəbbətini gündən-günə artırırdı.

Sovet Azərbaycanında ərəb əlifbasını qadağan edən, 1929-cu ildə qəbul edilən latın əlifbasını 1939-cu ildə kirillə əvəzləyənlər İranda ərəb əlifbasına saxta bir məhəbbət göstərirdilər. Orada xalq ərəb əlifbasında yazıb-oxuyurdu. Buna görə də Sovetlər qəzet və jurnalları, kitabları, afişaları ərəb əlifbasında Azərbaycan türkcəsində çap etdirirdilər. Sovetlərin milli dillərə önəm verməsi Məmməd Biriyanı Sovet Azərbaycanından gələn ziyalılarla tez-tez görüşür, onların təşkil etdikləri tədbirlərə qatılır, "Vətən yolunda" qəzetində şeirlərini və məqalələrini çap etdirir, yazdığı kiçik həcmli pyesləri səhnəyə qoymağa həvəsləndirirdi".

Ə.Şamil yazır ki, şeirlərini "Vətən yolunda" "Azərbaycan", "Xavəre-no" qəzetlərində, eyni zamanda Tehrandakı "Rəhbər", "Mərdom", "Zəfər", "Dəmavənd", "Mərdom", "Şöləvər", Rəştdəki "Səpidrud" qəzetlərində nəşr etdirən, mitinqlərdə alovlu çıxışlar edən Məhəmməd Biriya xalq arasında siyasi xadim kimi məşhurlaşırdı.

"…Alovlu nitqləri ilə xalqa təsir etməyi bacaran, çılğın təbiətli şairin dəyişkən xasiyəti xüsusi xidmət orqanlarının əməkdaşlarını qane etməsə də ondan əl çəkmək də istəmirlər. Tərbizi dönən kimi Məhəmməd Biriyanı yenidən siyasi işlərə cəlb edirlər. İran Antifaşist Ocağında və İran Kommunistlərinin Hezbi (farsca partiya) Tudənin (farsca xalq) təşkilatında çalışdırırlar. Onu İran hökuməti tərəfindən təqib edilən Azərbaycanı Həmkarlar İttifaqının sədiri Xəlil İnqilabinin yerinə seçdirirlər. Azərbaycanı Həmkarlar İttifaqına rəhbərlik etdiyi vaxt fəhlələrlə ərbablar (sahibkarlar) arasında 41 maddəlik bir müqavilə də imzalanmasına nail olur.

**Məhəmməd Biriya "Qələbə" adlı qəzetə redaktorluq edir, "Çətirbazlar", "Ruznamə idarəsində", "Stallinqrad", "Ərbab və əkinçi", "Mussolini", "Hitler və Mussolini" kimi kiçik pyeslər yazaraq Təbrizdəki Şire-Xurşid Teatrında, Marağa Şəhər Teatrında səhnəyə qoydurur. Bakıda Azərnəşr şairin 1944-cü ildə "Ürək sözü", "Seçilmiş əsərləri" kitabların çap edir və "Ürək sözü" kitabı rus dilinə tərcümə edilir. Onun Təbrizdə və Bakıda 13 kitabçası nəşr olunur..."**

Alovlu şair, vətənpərvər ziyalı, güney azərbaycanlıların azadlığı uğrunda yorulmaz mübarizə aparan Məhəmməd Bağırzadə Biriya bu gün yeni nəsil güneylilərin azadlıq mücadilələrinə həm həyat və fəaliyyəti, həm də şeiriyyəti ilə örnəkdir…

***İradə SARIYEVA***